***PSİXOLOGİYA***
***PSYCHOLOGY***
***ПСИХОЛОГИЯ***

*UOT 159.9.*

***Məhərrəm Sabir oğlu Əliyev***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*dosenti, psixologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dillər Universitetinin elmlər doktoru proqramı üzrə doktorantı*
*https://orcid.org/0000-0002-3762-8745*
*E-mail: dos.m.aliyev@gmail.com*
*https://doi.org/10.69682/arti.2025.92(6).332-342*

# MÜASİR DÖVRDƏ GƏNCLƏRİN DƏYƏR TƏSƏVVÜRLƏRİNİN İNTİHAR KONTEKSTİNDƏ PSİXOLOJİ TƏHLİLİ

***Maharram Sabir Aliyev***
*associate professor of*
*Azerbaijan State Pedagogical University,*
*doctor of philosophy in psychology*
*doctoral student of the doctor of science program at*
*Azerbaijan University of Languages*

# PSYCHOLOGICAL ANALYSIS OF VALUE REPRESENTATIONS OF YOUTH IN THE CONTEXT OF SUICIDE IN THE MODERN ERA

***Магеррам Сабир оглы Алиев***
*доцент Азербайджанского Государственного Педагогического Университета,*
*доктор философии по психологии,*
*докторант по программе доктора наук*
*Азербайджанского Университета Языков*

# ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ЦЕННОСТНЫХ ПРЕДСТАВЛЕНИЙ МОЛОДЁЖИ В КОНТЕКСТЕ САМОУБИЙСТВ В СОВРЕМЕННУЮ ЭПОХУ

**Xülasə.** Dəyər təsəvvürləri zamanla dəyişsə də, dəyərlərin əhəmiyyəti əsla azalmır. Həyatımızın önəmli komponentlərindən biri olan dəyərlərə müxtəlif tədqiqatçılar tərəfindən fərqli təriflər və izahlar verilmişdir. Dəyərlər məqsəd, vasitə, etalon, əhəmiyyətli obyekt və s. kimi tərif edilmiş və tədqiqatlar da müvafiq təriflərə əsaslanaraq aparılmışdır. Öz növbəsində, tədqiqatımızda dəyər təsəvvürləri intihar düşüncəsi (n=308x2) və intihara cəhd (n=93x2) amilləri kontekstində terminal və instrumental dəyərlərin qiymətləndirilməsi materialında öyrənilmişdir. Nəticələrə əsasən, intihar düşüncəsi olmayan və intihara cəhd etməyən gənclərin intihar düşüncəsi olan və intihara cəhd edən gənclərlə müqayisədə bəzi terminal və instrumental dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirməsi faktı aşkar edilmişdir. Bu istiqamətdə tədqiqatların davam etdirilməsinə böyük zərurət vardır.
***Açar sözlər:*** *intihar, gənclik, intihar riski, intihar düşüncələri, intihara cəhd, dəyərlər, dəyər təsəvvürləri, dəyər (sərvət) meylləri, terminal dəyərlər, instrumental dəyərlər*

**Abstract.** Although representations of values change over time, the importance of values never diminishes. Different researchers have given different definitions and explanations for values, which are one of the important components of our lives. Values have been defined as goals, means, standards, important objects, etc. and studies have been conducted based on the respective definitions. In turn, in our study, value concepts were investigated in the context of factors of suicidal thoughts (n=308x2) and suicide attempts (n=93x2) through the evaluation of terminal and instrumental values. According to the results, it was found

that young people who did not have suicidal thoughts and did not make suicide attempts rated some terminal and instrumental values as important values higher than young people who had suicidal thoughts and attempts. There is a great need for further research in this direction.

***Key words:*** *suicide, youth, suicidal risk, suicidal thoughts, suicide attempt, values, value representatıons, value orientation, terminal values, instrumental values*

**Аннотация.** Хотя представления о ценностях со временем меняются, их важность никогда не уменьшается. Разные исследователи давали различные определения и объяснения ценностям, которые являются одним из важных компонентов нашей жизни. Ценности определялись как цели, средства, стандарты, важные объекты и т. д., и исследования проводились на основе соответствующих определений. В свою очередь, в нашем исследовании ценностные концепции изучались в контексте факторов суицидальных мыслей (n=308x2) и попыток суицида (n=93x2) на материале оценки терминальных и инструментальных ценностей. Согласно результатам, было выявлено, что молодые люди, не имевшие суицидальных мыслей и не совершавшие попыток суицида, оценивали некоторые терминальные и инструментальные ценности как важные ценности выше, чем молодые люди, имевшие суицидальные мысли и попытки суицида. Существует большая необходимость в продолжении исследований в этом направлении.

***Ключевые слова:*** *самоубийство, молодежь, риск суицида, суицидальные мысли, попытка самоубийства, ценности, ценностные представления, ценностные ориентации, терминальные ценности, инструментальные ценности*

***Giriş***

Dəyərlər haqda istənilən mədəniyyətdə mövcud olan təsəvvürlər müvafiq mədəniyyətin daşıyıcısı olan şəxsiyyətin dəyər meylləri sistemini formalaşdırır. Dəyərlər – bu aləmdə bizim üçün vacib olan şeylərdir, başqa sözlə, bizim daxili hədəflərimizdir. Öz növbəsində, dəyərlər inancların formalaşdırılmasının əsasını təşkil edən kateqoriyadır, hansı ki, məhz bu inanclar həmin dəyərlərə çatmağın psixoloji mexanizmini anlamağa yardımcı olur. Bu anlamda, gənclərin dəyər təsəvvürlərinin intihar kontekstində psixoloji təhlili məqsədilə, öncəliklə, dəyər və sərvət, həmçinin dəyər və ya sərvət meyli anlayışlarına tərif verməklə yanaşı, müvafiq anlayışların hansı anlamlarda işlədilməsi məsələsinə diqqət yetirmək məqsədəuyğun olar. Qeyd etməliyik ki, Azərbaycan psixologiyasında dəyər və dəyər meyli anlayışları ilə yanaşı, sərvət meyli anlayışı işlədilmişdir (1). Müasir dövrdə ölkəmizdə dəyər probleminin işlənilməsi əksər tədqiqatçıların əsərlərində öz əksini tapmışdır. Dəyərlərin şəxsiyyətin inkişafındakı rolu və onun formalaşmasının psixoloji mexanizmləri (2; 3), tələbələrin dəyərlər sisteminin formalaşmasının psixoloji xüsusiyyətləri (4), yeniyetmə və gənclərdə dəyərlərin transformasiyasının istiqamətləri (5), dəyərlərin tədqiqinə yanaşmalar (6), dəyərlərin dini və milli identikliyin sosial sərmayəsi (7), dəyərlər sisteminin formalaşmasına etnik psixoloji amillərin təsiri (8) kimi məsələlərin öyrənilməsini nümunə olaraq göstərə bilərik. Həmçinin dəyərlərin mahiyyəti, fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları haqda axtarışları özündə ehtiva edən əsəri də qeyd edə bilərik (9). Xarici ədəbiyyatlarda da dəyər problemi fərqli aspektlərdə təhlil edilmiş, müvafiq anlayışa insan həyatında önəmli rol oynayan və insan davranışının əsasını təşkil edən mexanizm və s. kimi fərqli tariflər verilmişdir (10; 11; 12; 13; 14; 15; 16; 17; 18; 19; 20)

Dəyər anlayışı, *"isim olaraq, qiymət, baha kimi, iqtisadi anlamda əmtəə istehsalına sərf edilən və bu əmtəədə maddiləşən abstrakt əməyin müəyyən miqdarı kimi, məcazi anlamda qiymət, əhəmiyyət, ləyaqət, keyfiyyət kimi, sifət olaraq da layiq kimi"* dörd istiqamətdə izah olunur (21, s. 607 ). Sərvət anlayışı, *"isim (ər.) olaraq var, dövlət və maddi nemətlər kimi"* izah olunur (22, s. 95 ). Meyl anlayışı, *"isim (ər.) olaraq, 1.bir tərəfə əyilmə, 2.istək, arzu, həvəs və 3.könül, məhəbbət kimi"* izah olunur (23, s. 311-312). Meylli anlayışı, *"sifət olaraq bir tərəfə, bir yana meyil edən, əyilən və bir şeyə meyli, həvəsi olan, meyl göstərən; mayil kimi"* izah olunur (23, s. 312 )

"İzahlı rus dili lüğəti"ndə "*dəyər 1. dəyərli, 2.qiymət. maya dəyəri, 3.əhəmiyyət, önəm, məna, 4.dəyərli əşya, hadisə kimi"* izah olunur (24, s. 2194).

R.S. Nemov dəyərlər və dəyər (mahiyyət) anlayışlarını işlədir. Onun fikrincə, *"dəyərlər insanın öz həyatında, onu əhatə edən aləmdə, başqalarında, insanların maddi və mənəvi mə-*

*dəniyyatində ən çox əhəmiyyət verdiyi və xüsusilə üzərinə titrədiyi şeydir"* (25, s. 472). *"Dəyər (əhəmiyyət) isə 1.Əşyanın onu faydalı, arzuolunan edən və insan tərəfindən yüksək qiymətləndirilən keyfiyyəti və ya xüsusiyyəti və 2.Müəyyən bir mədəniyyəti və ya cəmiyyəti təmsil edən insanlara xas olan davranışa aid mücərrəd ümumi əlamət kimi izah olunur, hansı (dəyər) ki, müvafiq cəmiyyətin üzvləri tərəfindən sosiallaşma prosesində mənimsənilir və onlar tərəfindən onlar üçün dəyərli və faydalı bir şey kimi qavranılır"* (25, s. 473).

Həm "Psixologiya" lüğətində, həm də, "Praktik psixoloqun lüğəti"ndə oxşar şəkildə qeyd olunur ki, *"dəyər –obyektləri, hadisələri, onların xassələrini, həmçinin özündə ictimai idealları təcəssüm etdirən və bunun sayəsində uyğun olanın etalonu kimi çıxış edən mücərrəd ideyaları işarə etmək üçün fəlsəfə və sosiologiyada istifadə olunan anlayışdır. ... dəyərlər vahid toplam subyekt kimi çıxış edən sosial qrupların və icmaların, bütövlükdə bəşəriyyətin həyat fəaliyyətinin məhsulu kimi qəbul edilir. Dəyərlərin mövcudluğunun üç forması haqda danışmaq olar: 1) o, ictimai həyatın müxtəlif sahələrində olan, ictimai şüur tərəfindən inkişaf etdirilən və onda olan xüsusiyyətlərin mücərrəd ideyası kimi çıxış edən ictimai ideal kimi çıxış edir; belə dəyərlər həm universal, "əbədi" (həqiqət, gözəllik, ədalət), həm də konkret-tarixi (patriarxat, bərabərlik, demokratiya) ola bilər; 2) o, maddi-mənəvi mədəniyyət əsərləri və ya insan əməllərinin - sosial dəyər ideallarının (etik, estetik, siyasi, hüquqi və b.) konkret əşyavi təcəssümləri şəklində obyektivləşdirilmiş formada çıxış edir; 3) fərdi həyat fəaliyyəti prizmasından keçmiş sosial dəyərlər şəxsiyyətin davranışının motivasiya mənbələrindən biri olan şəxsi dəyərlər kimi şəxsiyyətin psixoloji strukturuna daxil olur"* (26, s. 442; 27, s. 527).

*"Dəyər – subyekt (fərd, qrup, təbəqə, etnik qrup) üçün həyati əhəmiyyət kəsb edən istənilən "obyekt"dir (ideal da daxil olmaqla). Geniş mənada dəyər kimi nəinki mücərrəd cəlbedici mənalar və ya situativ dəyərlər, həm də fərd üçün sabit əhəmiyyətli konkret maddi nemətlər çıxış edə bilər. Daha dar mənada, dəyərlərdən yüksək ümumiləşdirmə dərəcəsi olan anlayışlarda ehtiva olunan mənəvi ideyalar kimi danışmaq qəbul olunub"* (28).

"Böyük psixoloji lüğət"də *"Dəyər meylləri (ing. value orientations) şəxsiyyətin dünyagörüşünün və ya qrup ideologiyasının vacib komponentidir, hansı ki, bu və ya digər ümumbəşəri dəyərlərə münasibətdə şəxsiyyətin və ya qrupun tərcihlərini və canatmalarını ifadə (təmsil) edir"* yazılır (29, s. 539).

"Psixologiya" lüğətində yazılır ki, *"dəyər meylləri (sosial psixologiyada) (fr. orientations – yönəliş) – 1.subyekt tərəfindən ətraf gerçəkliyi və onda bələdləşməni qiymətləndirmənin ideoloji, siyasi, əxlaqi, estetik və digər əsaslarıdır. 2.fərd tərəfindən obyektlərin onların əhəmiyyətinə görə diferensiasiyası üsuludur"* (26, s. 441).

Başqa bir mənbədə qeyd edilir ki, *"dəyər meylləri – strateji həyat məqsədləri və ümumi ideoloji təlimatlar kimi insanın qəbul etdiyi dəyərlərin onun şüurunda əks olunmasıdır"* (28).

Dəyər və dəyər anlayışları arasında xeyli müddət sərt fərq ayrımı olmamışdır. Baxmayaraq ki, *"dəyərə meylləri fərdüstü dəyərlərin təmsillərinin fərdi formaları kimi nəzərdən keçirilsə də, dəyər və dəyər meylləri anlayışları dəyərlərin mövcudluğunun fərdi-psixoloji formalarının mövcudluğunun onların şüurda varlığından fərqli olaraq qəbul edilib-edilmədiyindən asılı olaraq ya "ümumi-fərdi" parametrə görə, ya da "real təsir edən-refleksiv dərk olunan" parametrə görə fərqlənirdi"* (28). Hazırda bu məsələdə daha çox Clyde K. Kluckhohn'un (1905-1960) fikirlərinə istinad edilir: *"Günümüzdə Clyde K. Kluckhohn'a söykənən, dəyərlərə motivasiyanın bir aspekti kimi və dəyər meyllərinə isə şəxsiyyətin fəaliyyətinin tənzim edilməsinin ierarxik strukturunda nisbətən yüksək mövqeyə sahib dəyər və ya attityudların (sosial yönəlişlərin) çeşidlərinin subyektiv konsepsiyaları kimi tərif verilməsi daha çox qəbul görməkdədir"* (28).

Bizi daha çox bu və ya digər dəyərləri üstün tutan, başqa sözlə, oxşar dəyər təsəvvürlərinə sahib gənclərin sosial davranışını proqnozlaşdırmaq imkanı maraqlandırır, hansı ki, sosial psixologiya məhz bu nöqteyi-nəzərdən dəyər problemini öyrənir.

*"Əsas dəyərlərə verilən təriflər iki əsas paradiqmaya uyğun gəlir. Söhbət ya ən arzuolunan, emosional cəhətdən cəlbedici, insan varlığının ideal vəziyyətini ("azadlıq", "təhlükəsizlik", "rifah", "həyatın mənası") təsvir etməyə qadir olan kifayət qədər mücərrəd ifadə tapmış*

*anlayışlardan, ya da eyni dərəcədə dərindən emosional olaraq üstünlük verilən davranış və ya hərəkətlər tərzindən ("dürüst", "məntiqi", "düzgün") gedir. İlk təriflər terminal dəyərləri, ikincisi isə, məsələn, əxlaqi dəyərləri ("məsuliyyətli") və səriştə dəyərlərini ("məntiqli", 'ağıllı', "təxəyyülə sahib") ehtiva edən instrumental dəyərləri özünə daxil edir. Funksional nöqteyi-nəzərdən, instrumental dəyərlər yalnız davranış və hərəkət tərzlərini qiymətləndirib seçərkən meyar (və ya standart) olaraq aktivləşirsə, terminal dəyərlər həm fəaliyyət məqsədlərini, həm də bunlara çatmanın izin verilən yollarını qiymətləndirib seçərkən aktivləşir"* (28).

Tədqiqatımızda məhz terminal və instrumental dəyərlərə münasibətdə intihar düşüncəsi olan və intihara cəhd edən gənclərin dəyər təsəvvürləri arasındakı fərqləri araşdırmağa çalışmışıq.

***Metod***

Tədqiqatda 534 nəfəri (86,7%) qadın, 82 nəfəri (13,3%) kişi olmaqla, cəmi 616 nəfər gənc iştirak etmişdir. Tədqiqatın məqsədindən asılı olaraq, "Dəyər meylləri" (M.Rokiç) (30) metodikası istifadə edilmiş və əldə olunan məlumatlar iki amil (intihar düşüncəsi və intihara cəhd) üzərindən təhlil edilmişdir. Gənclərin hamısı sorğuda könüllü iştirak etmişdir. Sorğuda iştirak edən gənclərin 308 nəfəri (50%) "İntihar etməklə bağlı düşüncəniz olubmu?" sualına bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 308 nəfəri (50%) xeyr cavabı vermişdir. "İntihara cəhd etmisinizmi?" sualına isə gənclərin 93 nəfəri (50%) bəli, say bərabərliyi üçün təsadüfi seçilmiş 93 nəfəri (50%) xeyr cavabı vermişdir. Sorğulardan əldə olunan məlumatlar İBM SPSS 27.0 kompüter proqramı ilə riyazi-statistik təhlil edilmişdir. Təhlil zamanı Kolmogorov-Smirnov normallıq testindən və Mann-Whitney U testindən istifadə olunmuşdur.

***Nəticə***

Tədqiqatda əsas məqsəd intihar düşüncəsi və intihar cəhdi amilləri fonunda gənclərin terminal və instrumental dəyərlər haqda təsəvvürlərini, bu dəyərlərə münasibətini müqayisə etmək olmuşdur. Öncə dəyər meylləri göstəricilərinin normal paylanmaya uyğun olub-olmadığını müəyyən etmək üçün Kolmogorov-Smirnov testi keçirilmişdir (cədvəl 1). Cədvəl 1-dən göründüyü kimi, dəyər meylləri göstəricilərinin hamısı normal paylanmadan fərqlənir ($p < .001$)

***Cədvəl 1.***

| **Tests of Normality** | | | | | | |
|---|---|---|---|---|---|---|
| | Kolmogorov-Smirnov[a] | | | Shapiro-Wilk | | |
| | Statistic | df | Sig. | Statistic | df | Sig. |
| Aktiv həyat fəaliyyəti | .135 | 616 | .000 | .934 | 616 | .000 |
| Həyat müdrikliyi | .162 | 616 | .000 | .903 | 616 | .000 |
| Sağlamlıq | .123 | 616 | .000 | .935 | 616 | .000 |
| Maraqlı iş | .120 | 616 | .000 | .930 | 616 | .000 |
| Təbiət və incəsənətin gözəlliyi | .193 | 616 | .000 | .852 | 616 | .000 |
| Məhəbbət | .166 | 616 | .000 | .865 | 616 | .000 |
| Maddi cəhətdən təminatlı həyat | .108 | 616 | .000 | .943 | 616 | .000 |
| Yaxşı və sadiq dostların olması | .150 | 616 | .000 | .895 | 616 | .000 |
| İctimaiyyət tərəfindən qəbul edilmək | .210 | 616 | .000 | .850 | 616 | .000 |
| İdrak | .175 | 616 | .000 | .881 | 616 | .000 |
| Məhsuldar həyat | .132 | 616 | .000 | .925 | 616 | .000 |
| İnkişaf | .133 | 616 | .000 | .909 | 616 | .000 |
| Azadlıq | .156 | 616 | .000 | .898 | 616 | .000 |
| Xoşbəxt ailə həyatı | .193 | 616 | .000 | .825 | 616 | .000 |
| Başqalarının xoşbəxtliyi | .164 | 616 | .000 | .893 | 616 | .000 |
| Yaradıcılıq | .125 | 616 | .000 | .922 | 616 | .000 |
| Özünəinam | .156 | 616 | .000 | .897 | 616 | .000 |
| Razılıq (Həzz) | .127 | 616 | .000 | .910 | 616 | .000 |
| Səliqəlilik | .193 | 616 | .000 | .841 | 616 | .000 |
| Tərbiyəlilik | .263 | 616 | .000 | .718 | 616 | .000 |
| Yüksək tələblər | .179 | 616 | .000 | .863 | 616 | .000 |
| Gülərüzlülük | .178 | 616 | .000 | .846 | 616 | .000 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İcraçılıq | .187 | 616 | .000 | .869 | 616 | .000 |
| Müstəqillik | .158 | 616 | .000 | .873 | 616 | .000 |
| Çatışmazlıqlarla barışmazlıq | .123 | 616 | .000 | .929 | 616 | .000 |
| Təhsillilik | .176 | 616 | .000 | .873 | 616 | .000 |
| Məsuliyyətlililk | .214 | 616 | .000 | .780 | 616 | .000 |
| Rasionalizm | .173 | 616 | .000 | .877 | 616 | .000 |
| Özünənəzarət | .184 | 616 | .000 | .854 | 616 | .000 |
| Öz fikrində təkid edə bilmək cəsarəti | .161 | 616 | .000 | .881 | 616 | .000 |
| Həssaslıq | .220 | 616 | .000 | .810 | 616 | .000 |
| Dözümlülük | .180 | 616 | .000 | .874 | 616 | .000 |
| Açıq fikirlilik (baxışların müxtəlifliyi) | .205 | 616 | .000 | .807 | 616 | .000 |
| Möhkəm iradə | .187 | 616 | .000 | .863 | 616 | .000 |
| Dürüstlük | .214 | 616 | .000 | .796 | 616 | .000 |
| İşlərdə səmərəlilik | .169 | 616 | .000 | .869 | 616 | .000 |

Daha sonra intihar düşüncəsi olan və olmayan (n=616), sonra isə intihara cəhd etmiş və etməmiş (n=186) gənclərin həyatlarında oynadığı əhəmiyyətə görə qiymətləndirdikləri dəyərlər arasında əhəmiyyətli fərqlərin olub-olmadığını aşkar etmək məqsədilə Mann-Whitney U testi tətbiq olunmuşdur. Bu test normal paylanma göstərməyən iki müstəqil qrup ortalamalarını qarşılaşdırmaq üçün istifadə olunan qeyri-paramertik yöntəmdir və Mann-Whitney *U* testi nəticəsində əldə olunan *Z* dəyəri isə test statistikası olmaqla, iki qrup arasındaki fərqin böyüklüyünü və statistik cəhətdən əhəmiyyətli olub-olmamasını göstərir. *Z-balı*, verilənlər nöqtəsinin verilənlər dəstinin ortalamasından neçə standart meylə (kənaraçıxmaya) sahip olduğunu açıqlayan statistik ölçüdür. *Z-balının* pozitiv olması, verilənlər nöqtəsinin ortalamanın üstündə, *z-balının* neqativ olması isə, verilənlər nöqtəsinin ortalamanın altında olduğu anlamına gəlir. Bu dəyər *p* dəyəri ilə birlikdə təhlil olunur.

İntihar düşüncəsi olan (n=308) və olmayan (n=308) gənclərin terminal və instrumental dəyərlərə münasibətləri zəminində onların dəyər təsəvvürlərinin təhlili iki qrup arasında əksər dəyərlərlə bağlı anlamlı fərqlərin olduğunu deməyə əsas verir.

Məhəbbət (U = 45213.500; Z = -1.016; p = .310), azadlıq (U = 45176.500; Z = -1.033; p = .301), xoşbəxt ailə həyatı (U = 47306.000; Z = -.058; p = .954), başqalarının xoşbəxtliyi (U = 44284.500; Z = -1.442; p = .149), yaradıcılıq (U = 46025.000; Z = -.642; p = .521), özünəinam (U = 45562.500; Z = -.856; p = .392), razılıq (həzz) (U = 45006.000; Z = -1.109; p = .267) kimi terminal dəyərlərin qiymətləndirilməsində intihar düşüncəsi olan və olmayan gənclərin cavablarında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 2). Lakin aktiv həyat fəaliyyəti (U = 31121.500; Z = -7.453; p < .001), həyat müdrikliyi (U = 37470.500; Z = -4.560; p < .001), sağlamlıq (U = 34030.500; Z = -6.113; p < .001), maraqlı iş (U = 35725.500; Z = -5.337; p < .001), təbiət və incəsənətin gözəlliyi (U = 41139.500; Z = -2.900; p = .004), maddi cəhətdən təminatlı həyat (U = 41548.000; Z = -2.680; p = .007), yaxşı və sadiq dostların olması (U = 40323.000; Z = -3.250; p = .001), ictimaiyyət tərəfindən qəbul edilmək (U = 36639.000; Z = -4.964; p < .001), idrak (U = 34057.500; Z = -6.139; p < .001), məhsuldar həyat (U = 32931.500; Z = -6.625; p < .001), inkişaf (U = 32812.500; Z = -6.685; p < .001) kimi terminal dəyərlərin qiymətləndirilməsində anlamlı fərqlərin olduğunu görürük (cədvəl 2). Orta və sıralama ortalarına görə təhlillər deməyə əsas verir ki, intihar düşüncəsi olmayan gənclər intihar düşüncəsi olan gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirmişlər.

***Cədvəl 2.***

***Test Statistics** (Terminal dəyərlər üzrə) n=616*

| | Mann-Whitney U | Wilcoxon W | Z | Asymp. Sig. (2-tailed) |
|---|---|---|---|---|
| Aktiv həyat fəaliyyəti | 31121.500 | 78707.500 | -7.453 | .000 |
| Həyat müdrikliyi | 37470.500 | 85056.500 | -4.560 | .000 |
| Sağlamlıq | 34030.500 | 81616.500 | -6.113 | .000 |

| | | | | |
|---|---|---|---|---|
| Maraqlı iş | 35725.500 | 83311.500 | -5.337 | .000 |
| Təbiət və incəsənətin gözəlliyi | 41139.500 | 88725.500 | -2.900 | .004 |
| Məhəbbət | 45213.500 | 92799.500 | -1.016 | .310 |
| Maddi cəhətdən təminatlı həyat | 41548.000 | 89134.000 | -2.680 | .007 |
| Yaxşı və sadiq dostların olması | 40323.000 | 87909.000 | -3.250 | .001 |
| İctimaiyyət tərəfindən qəbul edilmək | 36639.000 | 84225.000 | -4.964 | .000 |
| İdrak | 34057.500 | 81643.500 | -6.139 | .000 |
| Məhsuldar həyat | 32931.500 | 80517.500 | -6.625 | .000 |
| İnkişaf | 32812.500 | 80398.500 | -6.685 | .000 |
| Azadlıq | 45176.500 | 92762.500 | -1.033 | .301 |
| Xoşbəxt ailə həyatı | 47306.000 | 94892.000 | -.058 | .954 |
| Başqalarının xoşbəxtliyi | 44284.500 | 91870.500 | -1.442 | .149 |
| Yaradıcılıq | 46025.000 | 93611.000 | -.642 | .521 |
| Özünəinam | 45562.500 | 93148.500 | -.856 | .392 |
| Razılıq (Həzz) | 45006.000 | 92592.000 | -1.109 | .267 |

İnstrumental dəyərlərin qiymətləndirilməsi zamanı da təxminən eyni halla qarşılaşırıq. Belə ki, səliqəlilik (U = 46956.000; Z = -.220; p = .826), yüksək tələblər (U = 44745.000; Z = -1.239; p = .215), gülərüzlülük (U = 47013.000; Z = -.194; p = .846), icraçılıq (U = 44754.500; Z = -1.232; p = .218), müstəqillik (U = 44121.000; Z = -1.523; p = .128) kimi instrumental dəyərlərin qiymətləndirilməsində intihar düşüncəsi olan və olmayan gənclərin cavabları arasında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 3). Ancaq tərbiyəlilik (U = 43236.000; Z = -2.024; p = .043), çatışmazlıqlarla barışmazlıq (U = 39177.000; Z = -3.767; p < .001), təhsillilik (U = 35800.000; Z = -5.346; p < .001), məsuliyyətlik (U = 39323.500; Z = -3.802; p < .001), rasionalizm (U = 34344.000; Z = -6.004; p < .001), özünənəzarət (U = 35306.500; Z = -5.578; p < .001), öz fikrində təkid edə bilmək cəsarəti (U = 37007.500; Z = -4.787; p < .001), həssaslıq (U = 42347.000; Z = -2.380; p = .017), dözümlülük (U = 40248.000; Z = -3.299; p = .001), açıq fikirlilik (baxışların müxtəlifliyi) (U = 42092.000; Z = -2.474; p = .013), möhkəm iradə (U = 35452.500; Z = -5.511; p < .001), dürüstlük (U = 38878.500; Z = -3.993; p < .001), işlərdə effektivlik (U = 35097.000; Z = -5.675; p < .001) kimi instrumental dəyərlərin (cədvəl 3) qiymətləndirilməsi zamanı özünü göstərən anlamlı fərqlər orta və sıralama ortaları təhlillərinə görə, intihar düşüncəsi olmayan gənclərin intihar düşüncəsi olan gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirməsi faktını ortalığa qoymuşdur.

***Cədvəl 3.***
***Test Statistics** (İnstrumental dəyərlər üzrə) n=616*

| | Mann-Whitney U | Wilcoxon W | Z | Asymp. Sig. (2-tailed) |
|---|---|---|---|---|
| Səliqəlilik | 46956.000 | 94542.000 | -.220 | .826 |
| Tərbiyəlilik | 43236.000 | 90822.000 | -2.024 | .043 |
| Yüksək tələblər | 44745.000 | 92331.000 | -1.239 | .215 |
| Gülərüzlülük | 47013.000 | 94599.000 | -.194 | .846 |
| İcraçılıq | 44754.500 | 92340.500 | -1.232 | .218 |
| Müstəqillik | 44121.000 | 91707.000 | -1.523 | .128 |
| Çatışmazlıqlarla barışmazlıq | 39177.000 | 86763.000 | -3.767 | .000 |
| Təhsillilik | 35800.000 | 83386.000 | -5.346 | .000 |
| Məsuliyyətlik | 39323.500 | 86909.500 | -3.802 | .000 |
| Rasionalizm | 34344.000 | 81930.000 | -6.004 | .000 |
| Özünənəzarət | 35306.500 | 82892.500 | -5.578 | .000 |
| Öz fikrində təkid edə bilmək cəsarəti | 37007.500 | 84593.500 | -4.787 | .000 |
| Həssaslıq | 42347.000 | 89933.000 | -2.380 | .017 |
| Dözümlülük | 40248.000 | 87834.000 | -3.299 | .001 |

| | | | | |
|---|---|---|---|---|
| Açıq fikirlilik (baxışların müxtəlifliyi) | 42092.000 | 89678.000 | -2.474 | .013 |
| Möhkəm iradə | 35452.500 | 83038.500 | -5.511 | .000 |
| Dürüstlük | 38878.500 | 86464.500 | -3.993 | .000 |
| İşlərdə effektivlik | 35097.000 | 82683.000 | -5.675 | .000 |

İntihara cəhd edən (n=93) və etməyən (n=93) gənclərin terminal və instrumental dəyərlərə münasibətləri zəminində onların dəyər təsəvvürlərinin də təhlili iki qrup arasında əksər dəyərlərlə bağlı anlamlı fərqlərin olduğunu deməyə əsas verir.

Məhəbbət (U = 3712.000; Z = -1.689; p = .091), maddi cəhətdən təminatlı həyat (U = 3610.500; Z = 1.956; p = .050), yaxşı və sadiq dostların olması (U = 3706.500; Z = -1.696; p = .090), azadlıq (U = 3856.000; Z = -1.293; p = .196), xoşbəxt ailə həyatı (U = 4194.000; Z = -.365; p < .715), başqalarının xoşbəxtliyi (U = 4267.000; Z = -.159; p = .874), yaradıcılıq (U = 4227.500; Z = -.266; p = .790), özünəinam (U = 3863.500; Z = -1.275; p = .202), razılıq (həzz) (U = 4106.000; Z = -.601; p = .548) kimi terminal dəyərlərin qiymətləndirilməsində intihara cəhd edən və etməyən gənclərin cavablarında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 4). Lakin aktiv həyat fəaliyyəti (U = 2631.000; Z = -4.650; p < .001), həyat müdrikliyi (U = 2972.000; Z = -3.720; p < .001), sağlamlıq (U = 2533.500; Z = -4.914; p < .001), maraqlı iş (U = 2640.000; Z = -4.617; p < .001), təbiət və incəsənətin gözəlliyi (U = 3151.000; Z = -3.249; p = .001), ictimaiyyət tərəfindən qəbul edilmək (U = 2972.500; Z = -3.728; p < .001), idrak (U = 2660.500; Z = -4.581; p < .001), məhsuldar həyat (U = 2606.000; Z = -4.715; p < .001), inkişaf (U = 2600.500; Z = -4.734; p < .001) kimi terminal dəyərlərin qiymətləndirilməsində anlamlı fərqlərin olduğunu görürük (cədvəl 4). Orta və sıralama ortalarına görə təhlillər deməyə əsas verir ki, intihara cəhd etməyən gənclər intihara cəhd edən gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirmişlər

***Cədvəl 4.***
***Test Statistics*** *(Terminal dəyərlər üzrə) n=186*

| | Mann-Whitney U | Wilcoxon W | Z | Asymp. Sig. (2-tailed) |
|---|---|---|---|---|
| Aktiv həyat fəaliyyəti | 2631.000 | 7002.000 | -4.650 | .000 |
| Həyat müdrikliyi | 2972.000 | 7343.000 | -3.720 | .000 |
| Sağlamlıq | 2533.500 | 6904.500 | -4.914 | .000 |
| Maraqlı iş | 2640.000 | 7011.000 | -4.617 | .000 |
| Təbiət və incəsənətin gözəlliyi | 3151.000 | 7522.000 | -3.249 | .001 |
| Məhəbbət | 3712.000 | 8083.000 | -1.689 | .091 |
| Maddi cəhətdən təminatlı həyat | 3610.500 | 7981.500 | -1.956 | .050 |
| Yaxşı və sadiq dostların olması | 3706.500 | 8077.500 | -1.696 | .090 |
| İctimaiyyət tərəfindən qəbul edilmək | 2972.500 | 7343.500 | -3.728 | .000 |
| İdrak | 2660.500 | 7031.500 | -4.581 | .000 |
| Məhsuldar həyat | 2606.000 | 6977.000 | -4.715 | .000 |
| İnkişaf | 2600.500 | 6971.500 | -4.734 | .000 |
| Azadlıq | 3856.000 | 8227.000 | -1.293 | .196 |
| Xoşbəxt ailə həyatı | 4194.000 | 8565.000 | -.365 | .715 |
| Başqalarının xoşbəxtliyi | 4267.000 | 8638.000 | -.159 | .874 |
| Yaradıcılıq | 4227.500 | 8598.500 | -.266 | .790 |
| Özünəinam | 3863.500 | 8234.500 | -1.275 | .202 |
| Razılıq (Həzz) | 4106.000 | 8477.000 | -.601 | .548 |

Səliqəlilik (U = 4316.000; Z = -.024; p = .981), tərbiyəlilik (U = 4047.500; Z = -.808; p = .419), yüksək tələblər (U = 4286.000; Z = -.107; p = .915), gülərüzlülük (U = 4257.000; Z = -.190; p = .849), icraçılıq (U = 4063.000; Z = -.725; p = .468), müstəqillik (U = 4023.500; Z = -.834; p = .404), həssaslıq (U = 3678.500; Z = -1.814; p = .070) kimi terminal dəyərlərin qiy-

mətləndirilməsində intihara cəhd edən və etməyən gənclərin cavablarında əhəmiyyətli fərqlər aşkarlanmamışdır (cədvəl 5). Bununla yanaşı, çatışmazlıqlarla barışmazlıq (U = 3369.000; Z = -2.622; p = .009), təhsillilik (U = 2847.500; Z = -4.078; p < .001), məsuliyyətlilik (U = 3269.500; Z = -2.957; p = .003), rasionalizm (U = 2572.000; Z = -4.830; p < .001), özünənəzarət (U = 2891.000; Z = -3.962; p < .001), öz fikrində təkid edə bilmək cəsarəti (U = 3169.500; Z = -3.183; p = .001), dözümlülük (U = 2872.500; Z = -4.022; p < .001), açıq fikirlilik (baxışların müxtəlifliyi) (U = 3345.000; Z = -2.715; p = .007), möhkəm iradə (U = 2590.000; Z = -4.799; p < .001), dürüstlük (U = 3123.000; Z = -3.371; p = .001), işlərdə effektivlik (U = 2243.500; Z = -5.759; p < .001) kimi instrumental dəyərlərin qiymətləndirilməsində anlamlı fərqlərin olduğunu görürük (cədvəl 5). Orta və sıralama ortalarına görə təhlillər deməyə əsas verir ki, intihara cəhd etməyən gənclər intihara cəhd edən gənclərlə müqayisədə adı çəkilən terminal dəyərləri önəmli dəyərlər kimi daha yüksək qiymətləndirmişlər.

***Cədvəl 5.***
***Test Statistics** (İnstrumental dəyərlər üzrə) n=186*

| | Mann-Whitney U | Wilcoxon W | Z | Asymp. Sig. (2-tailed) |
|---|---|---|---|---|
| Səliqəlilik | 4316.000 | 8687.000 | -.024 | .981 |
| Tərbiyəlilik | 4047.500 | 8418.500 | -.808 | .419 |
| Yüksək tələblər | 4286.000 | 8657.000 | -.107 | .915 |
| Gülərüzlülük | 4257.000 | 8628.000 | -.190 | .849 |
| İcraçılıq | 4063.000 | 8434.000 | -.725 | .468 |
| Müstəqillik | 4023.500 | 8394.500 | -.834 | .404 |
| Çatışmazlıqlarla barışmazlıq | 3369.000 | 7740.000 | -2.622 | .009 |
| Təhsillilik | 2847.500 | 7218.500 | -4.078 | .000 |
| Məsuliyyətlilik | 3269.500 | 7640.500 | -2.957 | .003 |
| Rasionalizm | 2572.000 | 6943.000 | -4.830 | .000 |
| Özünənəzarət | 2891.000 | 7262.000 | -3.962 | .000 |
| Öz fikrində təkid edə bilmək cəsarəti | 3169.500 | 7540.500 | -3.183 | .001 |
| Həssaslıq | 3678.500 | 8049.500 | -1.814 | .070 |
| Dözümlülük | 2872.500 | 7243.500 | -4.022 | .000 |
| Açıq fikirlilik (baxışların müxtəlifliyi) | 3345.000 | 7716.000 | -2.715 | .007 |
| Möhkəm iradə | 2590.000 | 6961.000 | -4.799 | .000 |
| Dürüstlük | 3123.000 | 7494.000 | -3.371 | .001 |
| İşlərdə effektivlik | 2243.500 | 6614.500 | -5.759 | .000 |

Dəyər təsəvvürləri sahəsində ortalığa çıxan anlamlı fərqlər bir çox səbəblə izah edilə bilər, belə ki, ya bu dəyərlər intihar düşüncəsi olan və intihara cəhd edən gənclər üçün əhəmiyyətli deyildir, ya da tam tərsinə, önəmli olsa da, həyatlarında olmadığı üçün müvafiq dəyərlər onlar tərəfindən daha aşağı qiymətləndirilmişdir.

***Müzakirə***

Gəldiyimiz nəticələr deməyə əsas verir ki, qiymətləndirmədə anlamlı fərqlərin özünü göstərdiyi terminal və instrumental dəyərlər haqda təsəvvürlər intihar düşüncəsi olan və intihara cəhd edən gənclərdə yenidən gözdən keçirilməli, onların dəyər meylləri sistemi və bu sistemə münasibətləri yenidən işlənilməlidir. Təhsil sahəsindəki tədqiqatçıların dəyər meyllərinin öyrənilməsi (31), həmçinin tələbə gənclərdə dəyər meyllərinin araşdırılması (32) müvafiq mövzunun geniş spektrə malik olduğunu və doğru yöndə irəlilədiyimizi göstərir.

Dəyərlər "psixoloji immunitetimizin vitaminləridir", hansısa "çatışmayanda" (aşağı qiymətləndirməyə ekvivalent) şəxsiyyətimiz ahəngdarlığından uzaqlaşır. Ahəngdarlıqdan uzaqlaşma hər zaman ölümcül olmaya bilər, lakin bu, müvəqqəti haldır. Müəyyən dəyərlərin intihar (intihar düşüncəsi və intihara cəhd) kontekstində önəmli olduğu aşkarlanmışdır. Deməli, dəyərlər və onlar haqqındakı təsəvvürlər intihara meyllilikdə önəmli amil rolunu oynayır.

**Problemin aktuallığı.** Şəxsiyyətin formalaşması, həm özü, həm də cəmiyyət üçün xeyirli işlər görə bilən vətəndaş ola bilməsi üçün müvafiq dəyərlər sisteminə sahib olması önəmlidir. Lakin intihar düşüncəsi olan və intihara cəhd edən gənclərdə də dəyər təsəvvürləri vardır. Bu anlamda, dəyər təsəvvürlərinin intihar kontekstində öyrənilməsi xüsusi aktuallıq kəsb edir.

**Problemin elmi yeniliyi.** İlk dəfə intihar düşüncəsi olan və intihara cəhd edən gənclərlə intihar düşüncəsi olmayan və intihara cəhd etməyən gənclərin terminal və instrumental dəyərlər haqda təsəvvürləri müqayisəli zəmində təhlil edilmişdir.

**Problemin praktik əhəmiyyəti.** İntihar düşüncəsi olan və intihara cəhd edən gənclərin dəyər təsəvvürləri haqda əldə edilən biliklər gənclərin intihar zəminində həyata vida etmələrinin qarşısının alınması istiqamətində tövsiyələrin hazırlanmasına imkan yaradır.

## Ədəbiyyat


1. Babayeva, T., Kərimi G. Gənclərin sərvət meylinin təşəkkülünün bəzi psixoloji məsələləri: [Electronic resource] / Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 26 (II hissə). Bakı, 2020, 212 s. URL:http://static.bsu.az/w22/neshrler/MEQALE%20TOPLUSU%202020,%20II%20hisse.pdf
2. Əliyeva, K., Cabbarov, R., Məmmədli, İ., Əliyeva, T . (2018) Müasir dövrdə dəyərlərin formalaşmasının psixoloji mexanizmləri: [Electronic resource] // «Azərbaycan məktəbi». № 4 (685), səh. 77–84. URL:https://www.anl.az/down/meqale/az_mektebi/2018/04/663992(meqale).pdf
3. Əliyeva, K., Cabbarov R. Müasir şəraitdə şəxsiyyətin inkişafında dəyərlərin rolu: [Electronic resource] // – Bakı: Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "DÖVLƏTÇİLİK VƏ ŞƏXSİYYƏT" mövzusunda Ümumrespublika elmi-praktik konfransının materialları (3 noyabr 2021-ci il), s. 4-8 URL:http://static.bsu.az/w22/a_kafedralar/sosial-psixologiya/KONFRANS%202021.pdf
4. Rzayeva, N. Dəyərlərin təşəkkülü : tələbələrin dəyərlər sisteminin formalaşmasının psixoloji xüsusiyyətləri // "Psixologiya Zirvəsi: Problemlər, perspektivlər və yeni yanaşmalar" adlı beynəlxalq elmi-praktik konfransın materialları (tezislər). – Bakı: ADPU nəşriyyatı, 25 iyul – 26 iyul 2019, – 2020, – s. 14-17
5. Cabbarov, R.V., Mustafayev, M.H. Müasir dövrdə yeniyetmə və gənclərdə dəyərlərin transformasiyasının istiqamətləri: [Electronic resource] // Psixologiya jurnalı, -2020, №4, -s. 34-50 URL:http://psixologiyajurnali.az/content_files/JURNALI_2020__4.pdf
6. Məmmədli İ., Piriyeva, E., Mustafayev, M. Psixologiyada dəyərlərin tədqiqinə müxtəlif yanaşmalar: [Electronic resource] // – Bakı: Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "DÖVLƏTÇİLİK VƏ ŞƏXSİYYƏT" mövzusunda Ümumrespublika elmi-praktik konfransının materialları (3 noyabr 2021-ci il), -s. 60-65 URL:http://static.bsu.az/w22/a_kafedralar/sosial-psixologiya/KONFRANS%202021.pdf
7. Alıyev, C. Dəyərlər – Dini və milli identikliyin sosial sərmayəsi kimi: [Electronic resource] // Bakı: ADU Elmi Xəbərlər, № 4, -2021, -s. 92-97 URL:http://82.194.16.162:8080/xmlui/bitstream/handle/123456789/1238/Elmi%20xeberler%20%23%204-2021.pdf?sequence=1&isAllowed=y
8. Aslanova Ş. Şəxsiyyətin dəyərlər sisteminin formalaşmasına təsir göstərən etnik psixoloji amillərin təhlili: [Electronic resource] // – Bakı: Bakı Dövlət Universitetinin Sosial və pedaqoji psixologiya kafedrasının yaranmasının 10 illiyinə həsr olunmuş "DÖVLƏTÇİLİK VƏ ŞƏXSİYYƏT" mövzusunda Ümumrespublika elmi-praktik konfransının materialları (3 noyabr 2021-ci il), -s. 69-73 URL:http://static.bsu.az/w22/a_kafedralar/sosial-psixologiya/KONFRANS%202021.pdf
9. Məmmədov, E. Dəyərlər: mahiyyəti, fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları: [Electronic resource] // Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Jurnalı. Dövlət və Din - № 04 (71) -2021. URL: https://www.anl.az/down/meqale/dovlet_ve_din/2021/4/07(meqale).pdf
10. Горькая, Ж. В. Психология ценностей: учебное пособие: [Electronic resource] / Ж. В. Горькая. – Самара: Изд-во «Самарский университет», – 2014. – 92 с. URL: https://repo.ssau.ru/bitstream/Uchebnye-posobiya/Psihologiya-cennostei-Elektronnyi-resurs-ucheb-posobie-dlya-studentov-specialnosti-Psihologiya-68544/1/Горькая%20Ж.В.%20Психология.pdf
11. Каракулова, О.В. Психология ценностей личности: учебно-методическое пособие: [Electronic resource] / О.В. Каракулова, С.П. Степаненко, Н.А. Буравлева. – Томск : Издательство

Томскогогосударственного педагогического университета, – 2024. – 99 с. URL: https://fulltext.tspu.ru/OA/m2024-6.pdf
12. Баева, Л.В. Информационная эпоха: метаморфозы классических ценностей: монография: [Electronic resource] / Л. В. Баева ; Федеральное агентство по образованию, Астраханский гос. ун-т. – Астрахань: Астраханский ун-т, – 2008. – 216 с. URL: https://astresearch.narod.ru/baeva_10.htm
13. Баева, Л.В. Ценностные основания индивидуального бытия: Опыт экзистенциальной аксиологии: Монография: [Electronic resource] / – М.: Прометей. МПГУ, – 2003. – 240 с. URL: https://astresearch.narod.ru/baeva_9.htm
14. Кострова, Е. А. Понятие ценности и нормы в современных социальных науках: между теорией и эмпирией: [Electronic resource] / Е. А. Кострова // Гуманизация современной философии и гуманитаризация общественных наук: материалы научной конференции (17–18 мая 2018 г.). – Екатеринбург : Деловая книга, 2018. – С. 40-44. URL: https://elar.urfu.ru/bitstream/10995/62911/1/978-5-88687-247-7_09.pdf
15. Бакушкин, И.А., Ильичева, И.М. Изучение ценностей и ценностных ориентаций личности в истории психологии: [Electronic resource] / История педагогического и психологического образования Вестник МГПУ. Серия «Педагогика и психология», – 2021. с. 136-148 URL: https://rik.mgpu.ru/wp-content/uploads/2021/08/bakushkin.pdf
16. Яницкий, М. С. Ценностные ориентации личности как динамическая система: [Electronic resource] // Кемерово: Кузбассвузиздат. – 2000. – Т. 204. – с. 227. URL: https://psyinst.moscow/biblioteka/?part=article&id=2341
17. Леонтьев, Д.А. Ценностные представления в индивидуальном и групповом сознании: виды, детерминанты и изменения во времени: [Electronic resource] / Д.А. Леонтьев // Психологическое обозрение. – 1998. – №1. – с. 13–25. URL: https://library.by/portalus/modules/psychology/readme.php?subaction=showfull&id=1106412895&archive=1120045024&start_from=&ucat=&
18. Ярина, Е.В. Теоретический анализ понятий ценности и ценностные ориентации: [Electronic resource] / Ученые записки Орловского государственного университета. №5 (61), 2014 URL:https://cyberleninka.ru/article/n/teoreticheskiy-analiz-ponyatiy-tsennosti-i-tsennostnye-orientatsii/viewer
19. Гарванова, М. З., Гарванов, И. Г. Исследование ценностей в современной психологии: [Electronic resource] / Современная психология: материалы III Междунар. науч. конф. (г. Казань, октябрь 2014 г.). – Казань: Бук, 2014. – iv, 94 с. URL:https://www.researchgate.net/publication/269630605_ Issledovanie_cennostej_v_sovremennoj_psihologii
20. Ценностные основания психологии и психология ценностей: [Electronic resource] / Сборник материалов IV Сибирского психологического форума (16–18 июня 2011 г.). – Томск: Томское университетское издательство, – 2011. – 298 с. URL: https://core.ac.uk/download/pdf/287486926.pdf
21. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. I cild. – Bakı: “Şərq-Qərb”, – 2006. – 744 s.
22. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. IV cild. – Bakı: “Şərq-Qərb”, – 2006. – 712 s.
23. Azərbaycan dilinin izahlı lüğəti. Dörd cilddə. III cild. – Bakı: “Şərq-Qərb”, – 2006. – 672 s.
24. Ожегов С. И., Шведова Н. Ю. Толковый словарь русского языка: [Electronic resource] / 2314 с., s. 2194 URL: https://cyberlan.com.ua/wp-content/uploads/2015/07/Tolkovij-slovarj-russkogo-yazika.pdf
25. Немов, Р.С. Психологический словарь: [Electronic resource] / Р.С. Немов. — М. : Гуманитар. изд. центр ВЛАДОС, 2007. — 560 с. : ил. URL: https://www.klex.ru/i3f
26. 26.Психология. Словарь / Под общ. Ред. А.В. Петровского, М.Г. Ярошевского. – 2-е изд.: испр. и доп. – М.: Политиздат, – 1990, – 494 с.
27. Головин, С.Ю. Словарь практического психолога (около 2000 терминов): [Electronic resource] / – Минск: Издательский дом: Харвест, – 1998. – 800 с. URL:https://psv4.userapi.com/s/v1/d/445v9K_2TQC891wrANzJj1VIrOZAW4nNmBqqSGgOUScE_IAi4-LGbZ0GiLzTrwOAMuVpliUsilfVgPzq2Y_j4vbJYMoQRqXerTti06fNcSzg15sJ/Golovin_S_Yu_-_Slovar_prakticheskogo_psikhologa.pdf
28. Психологический словарь: [Electronic resource] / URL: https://psychology.net.ru/dictionaries/psy.html?word=1098
29. Большой психологический словарь: [Electronic resource] / – 4-е изд., расширенное / Под редакцией Б.Г.Мещерякова, В.П.Зинченко. – М.: Издательский дом: АСТ; АСТ-Москва; СПб; Прайм-Еврознак, – 2009. – 811 с. URL: https://spbguga.ru/files/03-5-01-005.pdf
30. Большая энциклопедия психологических тестов. – М.: Эксмо, – 2007. – 416 с.

31. Собкин, В.С., Андреева, А.И., Рзаева, Ф.Р.кызы. К вопросу о ценностных ориентациях исследователей в сфере образования. // Национальный психологический журнал. 2017. № 2. , 106-115. doi: 10.11621/npj.2017.0212 URL: https://npsyj.ru/articles/article/6919/
32. Тенькова В. А. Ценностные ориентации у студенческой молодежи: сборник трудов конференции / В. А. Тенькова, Н. А. Шевченко // Педагогика и психология: перспективы развития : материалы Междунар. науч.–практ. конф. (Чебоксары, 6 авг. 2017 г.) / редкол.: О. Н. Широков [и др.] – Чебоксары: Центр научного сотрудничества «Интерактив плюс», 2017. – с. 137-141. URL: https://interactive-plus.ru/ru/article/463567/discussion_platform

**Redaksiyaya daxil olub:** 07.10.2025